# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 83** **Bakı şəhəri, 15 mart 2022-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2019-cu il 9 iyul tarixli 294 nömrəli, "Əlilliyi olan şəxslərin hüquqları sahəsində dövlət monitorinqinin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2019-cu il 9 sentyabr tarixli 400 nömrəli, "İnfrastruktur obyektlərinin və yaşayış binalarının layihələndirilməsi və tikintisi zamanı əlilliyi olan şəxslərin tələbatının nəzərə alınmasına, istismarda olan infrastruktur obyektlərinin və yaşayış binalarının əlilliyi olan şəxslərin istifadəsi üçün ağlabatan uyğunlaşdırılmasına nəzarət Qaydası"nın təsdiq edilməsi haqqında" 2019-cu il 11 sentyabr tarixli 405 nömrəli və "Ödənişsiz psixoloji yardımın göstərilməsi Qaydası və Şərtləri"nin təsdiq edilməsi haqqında" 2020-ci il 16 oktyabr tarixli 398 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 22 iyun tarixli 346-VIQD nömrəli Qanununun tətbiqi və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 avqust tarixli 1424 nömrəli Fərmanının 3.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabine-tinin 2019-cu il 9 iyul tarixli 294 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1317; 2020, № 4, maddə 495; 2021, № 3, maddə 277, № 11, maddə 1294) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında, preambulada və 1-ci hissədə "I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara" sözləri "Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün ödənilməsi Qaydası" üzrə:

1.2.1. adında və 1.1-ci bənddə (hər iki halda) "I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara" sözləri "Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri ilə əvəz edilsin;

1.2.2. 1.2-ci, 2.1-ci və 3.3-cü bəndlərdə "I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara" sözləri "orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri ilə əvəz edilsin;

1.2.3. 1.6-cı bənddə "I dərəcə əlilliyi olan" sözləri "orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə, "sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin" sözləri ilə əvəz edilsin;

1.2.4. 2.2.1-ci, 2.2.2-ci, 2.2.3-cü yarımbəndlərdə (bütün hallarda) və 2.3-cü bənddə (hər iki halda) "I dərəcə əlilliyi olan" sözləri "orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

1.2.5. 2.2.4-cü yarımbəndin birinci və ikinci cümlələrində "sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri ilə əvəz edilsin;

1.2.6. 2.4-cü bənddə "I dərəcə əlilliyi müddətinə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların sağlamlıq imkanlarının məhdudluğu" sözləri "orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin əlilliyi" sözləri ilə əvəz edilsin;

1.2.7. 3.1-ci bənddə "I dərəcə əlilliyi olan şəxs və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaq" sözləri "orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxs" sözləri ilə, "I dərəcə əlilliyi olan şəxs və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlardan" sözləri isə "orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin" sözləri ilə əvəz edilsin;

1.2.8. 3.2-ci bənddə və 3.5.1-ci yarımbənddə ismin müvafiq hallarında "I dərəcə əlilliyi olan şəxs və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaq" sözləri ismin müvafiq hallarında "orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxs" sözləri ilə əvəz edilsin;

1.2.9. 3.5.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.5.3. "Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxsin həmin faiz dərəcəsi dəyişdirildikdə və ya ləğv edildikdə, 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsin əlilliyinin müddəti bitdikdə və ya ləğv edildikdə;";

1.2.10. 3.5.4-cü yarımbənd ləğv edilsin;

1.2.11. 3.5.5-ci yarımbənddə "I dərəcə əlilliyi olan şəxs (fəaliyyət qabiliyyəti olmayan I dərəcə əlilliyi olan şəxslər istisna olmaqla) və ya sağlamlıq imkanları məhdud" sözləri "orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxs (fəaliyyət qabiliyyəti olmayan orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslər istisna olmaqla) və ya əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 9 sentyabr tarixli 400 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1554; 2021, № 6 (IV kitab), maddə 666) ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin hüquqları sahəsində dövlət monitorinqinin həyata keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4.1.2-ci yarımbənddə "əlilliyinin növündən, formasından və" sözləri "orqanizmin funksiyalarının pozulması faizindən, əlilliyin növündən və insanın həyat fəaliyyətinin məhdudlaşma" sözləri ilə əvəz edilsin;

2.2. 4.1.3-cü yarımbənddən "müyəssərliyə nail olmaq üçün" sözləri çıxarılsın;

2.3. 4.1.4-cü yarımbəndə "zəruri" sözündən əvvəl "hər bir konkret halda" sözləri əlavə edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 sentyabr tarixli 405 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1559) ilə təsdiq edilmiş "İnfrastruktur obyektlərinin və yaşayış binalarının layihələndirilməsi və tikintisi zamanı əlilliyi olan şəxslərin tələbatının nəzərə alınmasına, istismarda olan infrastruktur obyektlərinin və yaşayış binalarının əlilliyi olan şəxslərin istifadəsi üçün ağlabatan uyğunlaşdırılmasına nəzarət Qaydası"nın 2.1-ci bəndində "Əlilliyin növündən, formasından və ağırlıq" sözləri "Orqanizmin funksiyalarının pozulması faizindən, əlilliyin növündən və insanın həyat fəaliyyətinin məhdudlaşma" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 oktyabr tarixli 398 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1286; 2021, № 11, maddə 1259) ilə təsdiq edilmiş "Ödənişsiz psixoloji yardımın göstərilməsi Qaydası və Şərtləri"nin 4.11-ci bəndinin birinci cümləsindən ", o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara" sözləri çıxarılsın və ikinci cümləsində "sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş, habelə sağlamlıq imkanları məhdud uşaqların" sözləri ilə əvəz edilsin.

**5.** Bu Qərar 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti.- 2022.- 18 mart.- S.5.